**T.Ə.ƏLİYEVA**
*e-mail: tureeliyeva@mail.ru*
**:https://orcid.org/0009-0005-4237-8751**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2024.4.245**

# MÜASİR AİLƏLƏRDƏ TƏRBİYƏNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə.*** *Məqalədə müasir azərbaycan ailələrində tərbiyənin təşkili problemləri tədqiqata cəlb olunmuş və müəyyənləşdirilmişdir ki, tərbiyə uzun müddətli prosesdir və onun nəticəsi hələ sabitləşincəyə qədər tez-tez dəyişə bilər. Bir çox valideyn və tərbiyəçilər bunu bilmədiklərindən, tələskənlik edib övladlari və şagirdləri barədə səhv hökmlər verirlər. Həyat isə onların əksinə olaraq həmin uşaqların istedadlı və tərbiyəli olduqlarını təsdiq etmişdir. Məqalədə ailə tərbiyəsindəki problemlərdən bəziləri təhlil olunur və həmin prob lemlərin aradan qaldırılmasının pedaqoji şərtləri dəqiqləşdirilir.*

***Açar sözlər:*** *müasir ailə, tərbiyə, valideyn, uşaqlar, ailə üzvləri, ana pedaqoji şərtlərinə aydınlıq gətirilir*

Valideynin övladla bağlı arzuları tükənməzdir. Hər kəs istər ki, övladı ğayğısız, şən, xoşbəxt yaşasın, gözəl sənət sahibi olsun, əxlaqı ilə baş ucalığı gətirsin. Bu arzu və istəyə qoşulmağın ilkin yolu uşaqlara qayğı, diqqət göstərmək, onlara düzgün tərbiyə verməkdən başlayır. Bunun üçün bir sıra pedaqoji şərtlərin ödənilməsi zəruridir:

*1. Valideyn olmağa mənən və ruhən hazır olmalı.* Əks təqdirdə, valideynlik vəzifəsini və borcunu ödəyə bilməyəcəksiniz. Övladlarınızın mənəvi, iqtisadi tələblərinin yerinə yetirilməsində çətinlik çəkəcəksiniz. Və daha pisi o olacaq ki, onları düzgün tərbiyə edə bilməyəcəksiniz. Belə olmasın deyə, ilk növbədə, özünüz tərbiyəli, əxlaqlı olmalısınız. Dahi rus yazıçısı və pedaqoqu L.N.Tolstoy deyirdi: "Tərbiyə yalnız o vaxta qədər mürəkkəb və çətin bir iş olur ki, biz özümüzü tərbiyə etməmiş, öz uşaqlarımızı və ya başqa birisini tərbiyə etmək istəyirik" [3, s. 91].

*2. Övladlarının tərbiyəsinin elmi əsaslarını öyrənməli.* Axı, tərbiyə işi kənardan asan görünən, lakin olduqca çətin və mürəkkəb işdir. K.D.Uşinski bununla əlaqədar yazırdı: "Tərbiyə işinin belə bir xüsusiyyəti var: o, demək olar ki, hamıya tanış gəlir, aydın görünür, bəzilərinə isə hətta asan görünür; adam onunla nəzəri və əməli cəhətdən az tanış olduqca, bir o qədər aydın və asan görünür" [2, s.76].

*3. Uşaqla tərbiyə prosesini səmərəli təşkil etməyin metodikasını düzgün qurmağı bacarmalı.* Uşaq oynamaq, əylənmək istəyir. O, rənglərlə düşünür, şadlanmağa, romantikaya daha çox canatır. Siz də onlarla işinizi məhz bu səpgidə qurmalısınız. Belə olarsa, uşaqlarınız nikbin, mehriban, şən böyüyəcək, onlarda nəcib hisslər, işıqlı duyğular nəşət tapacaq...

*4. Uşaqla tərbiyə işiniardıcıl və səmərəli təşkil etməli.* Tərbiyə işi gündəlik işdir. hər günün, hər saatın öz məqamı, öz yeri var. Ona görə də, darıxmadan, səbrlə, təmkinlə uşaqla oturmalı, əylənməli, suallarına cavab verməlisiniz. Cavabınız isə bütünlüklə uşaq dünyasına, uşaq təfəkkürünə uyğun olmalıdır. Belə olarsa məqsədinizə çatacaqsınız. Ailə tərbiyəsi üzrə tanınmış Azərbaycan pedaqoqları S.H. Axundov və A.M.Həsənov yazırlar: "Ərlə arvadın hər birinin mənəvi və mədəni inkişafı, yüksək mənəvi təlabat əsasında qurulan qarşılıqlı münasibəti, özləri işdən, uşaqları isə tərbiyə ocaqlarından, xüsusən məktəbdən qayıtdıqdan sonra uşaqların tərbiyə edilməsində birlikdə iştirak etmələri niləsinin möhkəmlənməsinə daima kömək edir; uşaqların öz valideynləri ilə əlaqəsinin doğurduğu sevinci artırır" [3, s. 8-9].

*5. Uşaqla tərbiyə işinin təşkḷlindən zövq almalı.* Siz bundan mənəvi ləzzət almasanız, onların tərbiyəsini taleyin ixtiyarına buraxacaqsınız. Bu isə sonralar valideyn kimi sizə baha başa gələcək: peşimançılıq hissi keçirəcək, əzab çəkəcək xəcalət təri axıdacaqsınız. Belə olmasın deyə, övladlarınızı sevin, onlarla bir yerdə olmaqdan, əylənməkdən zövq alın. Bu, sizin sabah övladınız, ailəniz ve cəmiyyətiniz qarşısında baş ucalığınız, alın açıqlığınız, vüqarlığınız olacaq...

*6. Uşaqların tərbiyəsində valideynlər vahid mövqedən hərəkət etməli.* Profesor Ə.Ə.Əlizadə bununla əlaqədar yazır: "Psixoloqlar müəyyən etmişlər ki, əgər ata və ananın idealları (uşaqda tərbiyə etmək istədikləri keyfiyyətlər haqqındakı təsəvvürləri) uyğun gəlmirsə, tərbiyə işində ciddi nöqsanlar özünü göstərir. Uşağın eyni hərəkətini biri pisləyir, o biri rəğbətləndirir. Ailə tərbiyəsində vahidlik prinsipi pozulur" [4, s. 160].

*7. Milli tərbiyənin məktəb qaynaqları:* Millətin övladlarını milli adət-ənənələrə sədaqət, soy kökünə bağlılıq ruhunda tərbiyə etmək, elmi biliklərlə silahlandırmaq məqsədilə xalq məktəblərə söykənmişdir. Qədimlərdə Şərqdə ən aparıcı, azman məktəb şəbəkəsi orta və ali təhsil verən mədrəsələr olmuşdur. İslamaqədərki dövrdə elmi-fəlsəfi fənlərin öyrənilməsi ilə məşğul olan xeyli mədrəsə vardır. Onlardan Misirin İsgəndəriyyə, Sasani hökmdarı Ənuşirəvanın təşəbbüsü ilə təsis edilmiş Cundeysibur və Hərran mədrəsələrini göstərmək olar. Onlarda qədim Yunan fəlsəfəsinin görkəmli nümayəndələrinin əsərləri ərəb dilinə tərcümə olunaraq tədris edilirdi.

İslamdan sonra isə yeni dini, elmi mədrəsələr təsis olundu. Onların sırasında Suriyanın Adiliyyə, Qəzaliyyə, Dimağiyyə, Misirin Nəsriyyə, Müstəkqriyyə mədrəsələrinin adlarını çəkmək olar. Şərqdə mədrəsələrin genişləndirilməsində Sultan Alp Arslanın və Sultan Məlik şahım vəziri Nizam əl-Mülkün tarixi xidmətləri əvəzsizdir. Bilavasitə onun rəhbərliyi ilə X əsrin ikinci yarısından etibarən İranın və Mövəraünnəhrin ərazisində sünnilik ali təhsil müəssisənin mədrəsənin sürətli tikintisi başlandı. Az vaxt ərzində Bağdad, Nişapur, Bəlx, Herat Mərv, İsfahan, Bəsrə, Məsul şəhərlərində mədrəsələr yaradıldı. Bunların ardınca Nizam əl-Mülkün siyasi rəqibi Tac əl-Mülk Bağdadda Taciyyə mədrəsəsini Hənəfəlilər və Hənbəlilər imam Əbu Hənifənnin türbəsi ətrafında Hənifə mədrəsəsini 1027-ci ildə əl-İsfarani tərəfindən Nişapur mədrəsəsini tikdirirlər.

Nizamiyyə mədrəsələrinə şəxsən Nizam əl-Mülk özü nəzarət edir, onlara müdir və müəllim göndərirdi. Beləliklə, 1091-ci ildə 33 yaşlı ilahiyyətçi-filosof Əbu Həmid əl-Qəzəlini Bağdad mədrəsəsinə, azərbaycanlı alim, "Fəqihlərin təbəqələri" kitabının müəllifi Əbuishaq Şirazi Firuzabadı mədrəsələrə müdir kimi təyin olunurlar. Dövrün adlı-sanlı əşərisi olan Əbülqasim əl-Quşeyrini Bağdad mədrəsəsinə moizə oxumağa göndərdilər.

Azərbaycanlı gənclər həm özümüzün ərazimizdəki mədrəsələrdə, həm də ayrı-ayrı Şərq ölkələrində məşhur olan tədris müəssisələrində təhsil alırdılar. Xüsusən xarici ölkə mədrəsələrində oxumağa çox maraq göstərirdilər Azərbaycanlı filosoflardan Şihabəddin Sührəvərdi Nizamiyyədə, Kəmaləddin Musa ibn Yunus Bağdad Nizamiyyəsində (O, sonralar N.Tusinin müəllimi olub). Şəmsəddin Əbdülhəmid ibn İsa Xosrovşahi Şamda... təhsil almışlar.

Xalqımızın içərisindən çıxmış böyük alim və ülamələr Şərqin mötəbər mədrəsələrində müəllim kimi xidmət göstərmişlər. Onlardan Ələddin Müzəffər Əbülxeyr oğlu Təbrizi Varani Misrin Nəsriyyə mədrəsəsində, Əbdülmənaqib Zəncani Müstəniriyyə mədrəsəsində, Səfiəddin Urməvi Dəməşqin Zöhriyyə Atabəkiyyə mədrəsələrində, Əfzələddin Xunəci Qahirənin Salihiyya mədrəsəsində, Şəmsəddin Xoylu və onun oğlu Şihabəddin Xoylu Adilliyə, Qəzaliyyə və Dimağiyyə mədrəsələrində, Əbuəhməd Zəki Həsən oğlu Beyləqani Yəmən mədrəsəsində müəllim işləmişlər. Şübhəsiz ki, oxucular üçün həmin mədrəsələrdə təlimin quruluşu, tədris planları və tədris proqramlarının məzmununu bilmək maraqlı ola bilər. Həmin marağı az-çox ödəmək istədiyimizdən, qısaca da olsa onlara toxunmağı lazım bilirik.

Orta təhsil verən mədrəsələrdə hərflərin öyrədilməsi, Quranın qiraəti, imla hədislər və onların məna duyumlarının açıqlanması ilk yerdə dururdu. Bunlardan sonra, dünyəvi elmləri

tədris edirdilər. Ali təhsil verən mədrəsələrdə təlim daha çətin qurulmuşdur. Fikrimizi “Saflıq qardaşları”nın məktəb nümunəsində açıqlayacağıq. Bu məktəblər dini səciyyə daşıdığından, onların tədris planına din, əxlaq, islamşünaslıq fiqh, nücum; dünyəvi elm kimi fəlsəfə, məntiq, meterologiya, minerologiya, cəbr həndəsə, kimya, zoologiya, coğrafiya, musiqi fənləri daxil edilmişdir.

Yuxarıda bu və ya digər şəkildə dəfələrlə deyilmişdir ki, tərbiyənin bünövrəsi ailədə qoyulur. Belə bir fikir də təsdiq edilmişdir ki, tərbiyə nə qədər erkən uşaqlara aşılanarsa, bir o qədər faydalıdır. Bunun sürəti və faydalılığı sizin ailə tərbiyənizin pedaqoji şərtlərini bilməyiniz və onlara əməl etməyinizdən çox asılıdır.

Əvvəla, uşaqların ailə tərbiyəsində səbrlilik, təmkinlilik əsas prinsip kimi gözlənilməlidir. Çünki tərbiyə etdiyiniz uşaqdır. Onlar elastik, oynaq və hədsiz dərəcədə fəaldırlar. Uzun müddət dinləmək, oturmaq, deyilənləri yadlarında saxlamaq, əxz etmək iqtidarında deyillər. Bu cəhətdən, yuxarıda deyilənləri gözləməniz lazım gəlir. Hətta uşaqlar ilk dəfə gördükləri və eşitdikləri bu və ya digər məsələ barədə sizə dəfələrlə sual verəcəklər: “bu nədir?”, “Onun rangi na üçün belədir?”, “mən kiməm?”, “buzovumuz anasını niyə əmir?”, “dəniz niyə dalğalanır?”, “it niyə hürür?”, “yağış nə üçün yağır?”, “ot haradan əmələ gəlir?... ildum niye çaxu?”, “filənkəs niyə axsayu?”, “Mələk xalanın beli niya ayridir?... niyə, nə üçün, hara? suallarını yağış kimi üstünüzə yağdıracaqlar. Həmdə eyni sualı dəfələrlə verəcəklər. Bütün bunları dinləmək, cavab vermək, başa salmaq siz valideynlərdən səbr, dözüm tələb edir.

Övladının tərbiyəsində yorulanlar, onu bacarmayanlar nəhayətdə naəlac qalıb, tərbiyə işini taleyin ümidinə buraxırlar. Professor N.M.Kazımov belələrini nəzərdə tutaraq yazır: “Bu və ya digər uşağın tərbiyəsində çətinliklə qarşılaşan bəzi tərbiyəçilərin “qozbeli qəbir düzəldər”, “qurda nə qədər yaxşılıq etsən, yenə də meşəyə baxar”, “ilanın balası yenə də ilan olar” və s. deməklə özlərini tərksilah edir, tərbiyə işində aciz olduqlarım göstərir...”[5, s. 27].

İkincisi, ailə tərbiyəsi ardıcıl verilməlidir. Bu işdə fasilə etmək, sonraya saxlamaq uduzmaq deməkdir. “Dəmiri isti-isti döyərlər”, – demişlər. Sizə verilən suallara həmin an cavab verməlisiniz. Əgər belə etməsəniz, uşaqlar onu kimdənsə soruşacaqlar və ola bilsin ki, səhv cavab alacaqlar. Həmin səhvləri də yaddaşlarında möhkəm saxlayacaqlar. Sonralar həmin yanlışlıqları düzəltmək sizin üçün əziyyətə çevriləcəkdir.

Həmçinin hər yaş dövrünün özünün tərbiyə işi var.

Atalarımız “Bu günün işin sabaha saxlama” – demişlər. Sabahın da öz işi var. Bunların hamısını sabaha saxlasaq, nəhayətdə, gör nə qədər işlər sabaha toplanıb qalar. Uşaq isə gözləmir. O, təbiətin, cəmiyyətin, ictimai mühitin məhəllənin, yoldaşlarının təsir obyektindədir. Özündən asılı olmayaraq, bütün təsirlərə məruzdur: yaxşını da, pisi də, xeyirlini də, zərərlini də qeyd-şərtsiz qəbul edir. Bu mənada, uşaqlarınızın tərbiyəsi sizin daim diqqətinizdə olmalıdır. Uşağınız sizin gözünüzün qarşısında və yaxud sizdən gizlində necə oynayır, necər nahar edir, necə davranır?... Bütün bunlardan vaxtında xəbər tutmalı və düzgün İstiqamətə yönəltməlisiniz. Deyilənlər bir daha təsdiq edir ki, tərbiyə işi ardıcıl qurulmalıdır.

Üçüncüsü, uşaqların yaşına uyğun hərəkət etmək, davranmaq lazımdır. Kiçik yaşlıların bu və ya digər naqis hərəkət etməsi təbiidir. Axı, o, yaxşı və pisin nədən ibarət olmasını sizin səviyyənizdə bilmir. Bilavasitə bununla əlaqədar övladınızın yaşı ilə hesablaşmalı və həmin yaşın xüsusiyyətləri ilə əlaqədar onlarla davranmalısınız. Bu barədə hindlilərin gözəl, elmi əsasları olan bir zərb məsəlində deyilir: “Oğlun beş yaşına çatanadək onunla şah kimi, beşdən on beşədək nökər kimi, on beşdən sonra isə dost kimi rəftar elə”...

Dördüncüsü, ailə tərbiyəsində uşağa münasibətdə orta hədd gözlənməlidir. Uşağa məhəbbət məsələsində valideynləri üç qrupa bölmək olar: a) uşağını hədsiz əzizləyənlər. Bu, olduqca zərərlidir. Uşaq valideyninin hüdudsuz məhəbbətindən istifadə edərək şıltaqlıq, ərköyünlük edir; b) hədsiz sərtlik edənlər. Uşaq şadlıq, təbəssüm istəklidir, onların qəlbini qırmaq olmaz. Əks təqdirdə, uşaqlar qəddar, əzazil, başqalarına qarşı biganə olarlar.

Beşincisi, uşaqların ailə tərbiyəsində xırda məsələlərdən iri problemlərə kimi hamısı diqqət mərkəzində saxlanmalıdır, Bu gün sizə kiçik görünən nöqsan sabahkı bəlaların başlanğıcıdır. L.A.Seneka deyirdi ki, kiçik nöqsanlar böyük səhvlərə aparır. K.D.Uşinskinin də böyüklər haqqında dediyi bir fikir burada yerinə düşür. O, yazırdı: "Tərbiyəçi insanı həqiqətdə olduğu kimi bilməli, onun bütün zəif və qüvvətli cəhətləri ilə, bütün gündəlik xırda ehtiyacları və eləcə də böyük ruhi tələbləri ilə tanış olmalıdır. Tərbiyəçi insam ailədə, cəmiyyətdə, xalq arasında bəşəriyyət İçərisində və öz vicdanı ilə üzbəüz durduğu halda öyrənməlidir; o insanı bütün yaşlarda, bürün vəziyyətlərdə, şadlıq və qəmkinlik hallarında, yüksələn və alçalan hallarda, bədəncə xəstə və sağlam olan vaxt hədsiz ümidlər içərisində və bütün insan təsəllilərinin gücsüz olduğu ölüm yatağında olan zaman öyrənməlidir" [2, s. 98].

Altıncısı, uşaqların tərbiyəsinə təsir göstərəcək, bütün vasitələrdən maksimum səmərə ilə istifadə edilməlidir. Mənzilin quruluşu, onun bədii tərtibatı, avadanlığın yerləşdirilməsi, onlardan istifadə edilməsi, ailə rejimi, mədəni vərdiş qaydaları elə tənzimlənməlidir ki, onların ümumi ahəngindən tərbiyə üçün İstifadə imkanları artmış olsun. Bütün bunlar elə əlaqələndirməlidir ki, müəyyən vaxtdan sonra valideynin evdə olub-olmamasından asılı olmayaraq, uşağı tərbiyə etsin. N.M.Kazımov məhz bunları nəzərdə tutaraq yazırdı: "Elə düşünməyin ki, siz uşağı yalnız onunla danışığınız və ya öyrətdiyiniz, ya da siz bir əmr etdiyiniz zaman tərbiyə edirsiniz, Siz onu həyatınızın hər bir anında, hətta evdə olmadığınız zamanda da tərbiyə edirsiniz. Siz necə geyinirsiniz, başqa adamlarla və özgə adamlar haqqında necə danışıısınız, necə sevinir və necə kədərlənirsiniz. dostlar və düşmənlərlə necə davranırsınız, necə gülürsünüz, qəzeti necə oxuyursunuz – bütün bunların uşaq üçün böyük əhəmiyyəti vardır" [5, s.182].

Yeddincisi, uşaqların tərbiyəsindən tələsik nətiçə çıxarılmamalıdır. Hər birimiz doğulandan qəbir evinə kimi tərbiyəyə möhtacıq. Tərbiyə uzun müddətli prosesdir və onun nəticəsi hələ sabitləşincəyə qədər tez-tez dəyişə bilər. Bir çox valideyn və tərbiyəçilər bunu bilmədiklərindən, tələskənlik edib övladları və şagirdləri barədə səhv hökmlər verirlər. Həyat isə onların əksinə olaraq həmin uşaqların istedadlı və tərbiyəli olduqlarını təsdiq etmişdir.

***İşin elmi nəticəsi.*** Tədqiqat pedaqogikanın tərbiyə nəzəriyyəsini zənginləş dirməklə yanaşı Azərbaycan dövlətçiliyi ideologiyasına da dəyərli xidmət edə bilər.

***İşin elmi yeniliyi*** ondan ibarətdir ki, ilk dəfə olaraq müasir ailələrdə tərbiyənin təşkili xüsusiyyətləri aydınlaşdırılır, ailə şəraitində neqativ hallarım aradan qaldırılması yolları müəyyən olunur, ailə qruplarının tərbiyə imkanları açıqlanır.

***İşin tətbiqi əhəmiyyəti.*** Tədqiqatın nəticələrindən orta məktəb müəllimləri rərbiyəçilər və məktəb rəhbərləri, hər bir azərbaycan ailəsi başçıları, tədqiqatçı alimlər, ali məktəb işçiləri istifadə edə bilər.

## Ədəbiyyat

1. Abbasov, A.N. Ailə pedaqogikası / A.N.Abbasov. – Bakı: Mütərcim, – 2000. – 311 s.
2. Uşinski, K.D. Seçilmiş pedaqoji əsərləri. "Azərbaycan məktəbi" jurnalının nəşri / K.D.Uşinski. – Bakı, – 2003. – 314 s.
3. Axundov S.H. Ailədə uşaqların əxlaq tərbiyəsi / S.H.Axundov, A.M. Həsənov. – Bakı: Maarif, 1991. – 278 s.
4. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə / Ə.Ə.Əlizadə, A.N.Abbasov. – Bakı: Maarif, – 1999. – 312 s.
5. Kazımov, H.M. Məktəb pedaqogikası / H.M.Kaimov. – Bakı: OKA Ofset, – 2009. – 514 s.

**T.A.Aliyeva**

**Organizational Features of Education in Modern Families**

***Summary***

The article touched upon the problems of organizing education in modern Azerbaijani families and determined that education is a long-term process and its result can often change to stability. Since many

parents and teachers do not know this, they rush and give wrong conclusions about their children and students. Life, in spite of this, has confirmed that these children are talented and well-mannered. The article analyzes some problems of family education and specifies pedagogical conditions for overcoming them.

***Key words:*** *modern family, education, parent, family members, mother*

**Т.А.Алиева**

**Организационные особенности воспитания в современных семьях**

***Резюме***

В статье были затронуты проблемы организации воспитания в современных азербайджанских семьях и определено, что воспитание является длительным процессом и его результат может часто меняться до устойчивости. Поскольку многие родители и педагоги этого не знают, они спешат и дают неправильные выводы о своих детях и учениках. Жизнь вопреки этому подтвердила, что эти дети талантливы и воспитаны. В статье анализированы некоторые проблемы семейного воспитания и уточнены педагогические условия их преодоления.

***Ключевые слова:*** *современная семья, воспитание, родитель, члены семьи, мать*

*Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev*

*Redaksiyaya daxil olub: 17.11.2024*